# Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin fəaliyyətinin Naxçıvan Muxtar Respublikasında təşkil edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatların tərkib hissəsini qiymətli kağızlar bazarının formalaşdırılması və inkişaf etdirilməsi təşkil edir. Bu istiqamətdə nəzərdə tutulan tədbirlərin səmərəliliyinin artırılması onların respublikanın bütün bölgələrində həyata keçirilməsini tələb edir.

Azərbaycan Respublikasında qiymətli kağızlarla fəaliyyətin inkişaf etdirilməsi, bu sahədə investorların hüquqlarının qorunmasının təmin edilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi yaradılsın.

2. Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi Naxçıvan Muxtar Respublikasında Milli Depozit Mərkəzinin müvafiq struktur bölməsinin yaradılması üçün zəruri olan tədbirləri görsün.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

> 3.1. Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin fəaliyyətinin maliyyələşdirilməsi ilə əlaqədar 2005-ci il üçün Azərbaycan Respublikasının dövlət büdcəsindən və 2006-cı il və növbəti illər üçün dövlət büdcəsi layihələrində vəsaitin ayrılmasını nəzərdə tutsun;
>
> 3.2. Bu sərəncamın icrasını təmin etmək üçün digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə tapşırılsın ki, bir ay müddətində bu sərəncamın icrasını təmin etmək üçün zəruri olan məsələləri həll etsin.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin və Naxçıvan Muxtar Respublikasında Milli Depozit Mərkəzinin müvafiq struktur bölməsinin inzibati bina ilə təmin edilməsi üçün zəruri olan tədbirləri görsün və bu sərəncamın icrasını təmin etmək üçün digər məsələləri həll etsin.

6. Bu sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 22 sentyabr 2005-ci il***

***№ 1018***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (23 sentyabr 2005-ci il, № 221) («VneshExpertService»)***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 sentyabr 2005-ci il, № 9, maddə 838) («VneshExpertService»).***

*© VneshExpertService*